LEGION FINANCIAL

“Legion Financial”
Açıq Səhmdar Cəmiyyəti

Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 (on min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların

EMİSSİYA PROSPEKTİ

Bakı-2026

Qeyd: Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

BƏYANAT

Biz, aşağıda imza edənlər,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya Prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. "Legion Financial" Açıq Səhmdar Cəmiyyətinin hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 (on min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlarının Emissiya Prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir fakt gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.

"Legion Financial" Açıq Səhmdar Cəmiyyətinin

Direktoru:

Məmmədov Böyükağa Mirkamal oğlu

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti LEGION FINANCIAL Open Joint-Stock Company Azerbaijan Republic

Tarix: 04 Oktyabr 2026-cı il

MÜNDƏRİCAT

XÜLASƏ 4

1. Xəbərdarlıq 4
2. Emitent barədə məlumat 4
3. Qiymətli kağızlar haqqında məlumat 7
4. Risk faktorları 9
5. Təklif 10

İstiqrazlar barədə tələb olunan məlumatlar 12

6. Əsas məlumat 12
7. İstiqrazlar barədə məlumat 13
8. Təklifin şərtləri 16
9. Ticarətə buraxılma və onun tənzimlənməsi 18
10. Kredit reytinqləri 18

İstiqrazların emitenti və zamin (olduqda) barədə tələb olunan məlumat 18

11. Emitentin auditorları barədə məlumat 18
12. Seçilmiş maliyyə məlumatı 19
13. Emitent barədə məlumat 20
14. Emitentin biznesinin icmalı 20
15. Digər təşkilatlarda iştirak 21
16. Tendensiyalar barədə məlumat 22
17. Gəlir proqnozu 22
18. Emitentin idarəetmə və nəzarət orqanları 22
19. İdarə heyətinin işgüzar praktikası 23
20. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər 24
21. Emitentin maliyyə məlumatları 24
22. Emitent haqqında əlavə məlumatlar 31

XÜLASƏ

1. Xəbərdarlıq

1.1. Bu sənəd Emissiya prospektinin giriş hissəsidir;

1.2. Qiymətli kağızlara investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir;

1.3. Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

2. Emitent barədə məlumat

2.1.Emitentin tam adı: "Legion Financial" Açıq Səhmdar Cəmiyyəti.

2.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:
AZ1100, Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi prospekti, ev 25A; Açıq Səhmdar Cəmiyyəti; Azərbaycan Respublikası.

2.3.Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:
Maliyyə sektorunun fəaliyyəti makroiqtisadi, tənzimləyici, texnoloji və sosial amillərin təsirinə məruz qalır. Şirkətin əsas fəaliyyəti avtomobil lizinqi, faktorinq və lombard kreditləri vasitəsilə aktivlərin genişləndirilməsi, həmçinin ABŞ-da daşınmaz əmlakın idarə edilməsi (törəmə şirkət "Finoko-USA" MMC vasitəsilə) və səmərəli idarə olunmasından ibarət olduğu üçün aşağıdakı tendensiyalar Şirkətin əməliyyatlarına birbaşa təsir göstərir:
Rəqəmsal transformasiya və yığım kanallarının avtomatlaşdırılması: Maliyyə və yığım sektorunda rəqəmsal texnologiyaların, skorinq sistemlərinin və sürətli ödəniş inteqrasiyalarının tətbiqi genişlənir. Şirkət İT və innovasiya xərclərini artıraraq əməliyyatların avtomatlaşdırılmasına və müştəri xidmətlərinin operativliyinə yatırım etmişdir. Rəqəmsal kanalların inkişafı borclularla və lizinqalanlarla əlaqənin operativliyini, eləcə də ödənişlərin yığım səmərəliliyini artırır.
Borclulara tətbiq edilən güzəşt proqramları və sosial məsuliyyət: Problemli borcların və lizinq öhdəliklərinin idarə edilməsində borcluların ödəniş qabiliyyətinə uyğun restrukturizasiya olunması əsas tələblərdəndir. Şirkət yığım və tənzimləmə prosesində müştərilərə müxtəlif güzəştlər (o cümlədən icarə güzəştləri) təqdim edir. Bu cür yanaşmalar portfelin keyfiyyətini, yığım faizini və müştəri loyallığını artıran əsas amillərdən olmuşdur.
Tənzimləyici tələblərin artması və hüquqi çərçivə: Maliyyə bazarlarında şəffaflığın artırılması və MHBS standartlarına uyğun hesabatlılıq tələbləri sərtləşir. Şirkət əməliyyatlarını MHBS 9 standartlarına uyğunlaşdırmış, aktivlər üzrə gözlənilən kredit zərərləri (GKZ) üçün mütəmadi olaraq ehtiyatlar ayırmışdır (məsələn, 2025-ci ildə maliyyə aktivləri üzrə 309 051 manat GKZ xərci çəkilmişdir). Bu tələblər əməliyyat xərclərini artırsa da, bazarda etimadı və şəffaflığı möhkəmləndirir.
Makroiqtisadi şərtlər və borc portfellərinin keyfiyyəti: İnflyasiya və iqtisadi fəallıq fiziki və hüquqi şəxslərin borc ödəmə qabiliyyətinə birbaşa təsir edir. Ölkədə manatın sabitliyinin qorunması və inflyasiyanın hədəf diapazonunda saxlanılması lizinq və kredit portfellərindən pul daxilolmalarını müsbət dəstəkləyir. Məsələn, 2025-ci ildə Şirkətin lizinq portfeli genişlənərək əhəmiyyətli artım nümayiş etdirmiş, ümumi maliyyə lizinqi üzrə debitor borcları 13.23 milyon manata çatmışdır.
Bank və BOKT sektorunun aktivləri təmizləmə tendensiyası: Azərbaycanın maliyyə sektorunda balansda olan portfel keyfiyyətini artırmaq və şaxələndirmək istiqamətində yeni məhsulların (faktorinq və lombard kreditləri) tətbiqi sürətlənir. Şirkət də öz növbəsində lizinqlə yanaşı faktorinq müqavilələri (2.54 milyon manat) və lombard kreditləri (448 min manat) portfelini formalaşdırmaqla biznes miqyasını böyütmüşdür.

Kibertəhlükəsizlik və fərdi məlumatların qorunması: Böyük həcmdə fərdi borc və müştəri məlumatları ilə işləyən təşkilatlar üçün kibertəhlükəsizlik riskləri böyük önəm kəsb edir. Şirkət müştərilərin məlumatlarının mühafizəsi və İT sistemlərinin təhlükəsizliyi üçün müvafiq texnoloji standartları tətbiq edir.

2.4.Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd: Mövcud deyil.

2.5.Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd: Gəlir proqnozu mövcud deyil.

2.6.Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:

"Legion Financial" ASC-nin kənar audit yoxlaması 2023, 2024 və 2025-ci illərdə "RSM" beynəlxalq audit şirkəti tərəfindən aparılmışdır. Kənar audit rəyinə əsasən, "Legion Financial" ASC -nin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin il sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir. Audit zamanı 2023-2025-ci illər üzrə balans hesabatı, Mənfəət və Zərər haqqında hesabat, Kapitalda dəyişiklik və Pul vəsaitlərinin Hərəkəti haqqında hesabatlar üzrə cədvəllər tərtib olunmuş və rəylərdə əks etdirilmişdir. Həmin dövrlər üzrə Cəmiyyətin fəaliyyətinə müsbət rəy verilmişdir. 2023-2025-ci illər üzrə kənar audit tərəfindən verilmiş rəylərdə mühüm və ya riskli qeydlər olmamışdır.

2.7.Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.

Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin maliyyə vəziyyətində və maliyyə nəticələrində əhəmiyyətli dəyişikliklər olmamışdır.

Göstəricilər (manatla)	31.12.2025 (audit olunmuş)	31.12.2024 (audit olunmuş)	31.12.2023 (audit olunmuş)
Cəmi aktivlər	20 671 451	13 771 052	4 750 763
Cəmi öhdəliklər	15 806 559	9 027 120	1 889 430
Cəmi kapital	4 864 892	4 743 932	2 861 333
Pul vəsaitləri və onların ekvivalentləri	44 644	116 056	22 414
Maliyyə lizinqi üzrə debitor borcları	13 230 956	10 051 314	4 727 467
İl üzrə cəmi məcmu gəlir	1 361 418	1 213 932	616 332

Göstəricilər (manatla)	30.06.2026 (audit olunmamış)	30.06.2025 (audit olunmamış)
Cəmi aktivlər	22 471 281	19 067 603
Cəmi öhdəliklər	17 023 335	14 684 558
Cəmi kapital	5 447 946	4 383 044
Pul vəsaitləri və onların ekvivalentləri	43 493	149 469
Maliyyə lizinqi üzrə debitor borcları	12 093 071	11 135 820
İl üzrə cəmi məcmu gəlir	479 097	733 044

2.8.Emitentin ödəmə qabiliyyətinə təsir edən ən son hadisələr:

Təşkilatın ödəmə qabiliyyətinə təsir edən əsas amillərdən biri olan lizinq portfelinin illik artım tempi və portfel keyfiyyəti dinamik bazar şərtlərinə uyğun olaraq qənaətbəxş səviyyədə idarə olunur. Cədvəldə portfelin artım tempi və gecikmədə olan lizinq portfeli üzrə faktiki göstəricilər təqdim edilmişdir. Son 3 ildə lizinq portfeli davamlı yüksəliş nümayiş etdirərək 4.7 mln. AZN-dən 13.2 mln. AZN-ə qədər artmış, illik artım templəri isə müvafiq olaraq 123%, 112% və 31,6% təşkil etmişdir. Portfelin şaxələnməsi və mütləq həcminin böyüməsi fonunda, 30 gündən çox gecikmiş portfelin (PAR>30) ümumi lizinq portfelinə nisbəti son ildə 17.57% səviyyəsində qərarlaşmışdır. Gecikmədə olan portfelin payında artım müşahidə edilsə də, risklərin idarə olunmasında və itkilərin sığortalanmasında kifayət qədər müsbət tendensiya mövcuddur. Belə ki, vaxtı keçmiş lizinqlərin mütləq əksəriyyəti tam şəkildə yüksək likvidli girovlarla (lizinq predmeti ilə) təmin olunduğu üçün, xalis risk altında olan təminatsız hissənin ümumi portfelə nisbəti 0% təşkil edir.

Göstəricilər (manatla)	31.12.2025 (audit olunmuş)	31.12.2024 (audit olunmuş)	31.12.2023 (audit olunmuş)
Lizinq portfeli (məbləğ)	13 230 956	10 051 314	4 727 467
Portfelin illik artım %- i	31.6%	112%	123%
PAR>30 (məbləğ)	3 002 436	1 831 417	616 738
PAR>30 təminatsız hissə (məbləğ)	0	0	0
PAR>30 / Portfel (%)	17.57%	15%	13%
PAR>30 təminatsız hissə / Portfel (%)	0%	0%	0%

Nizamnamə Kapitalının Artırılması:

Emitentin nizamnamə kapitalının 4 130 000 (dörd milyon yüz otuz min) manata çatdırılması, emitentin maliyyə dayanıqlığını gücləndirən müsbət bir addımdır. Bu, investorların şirkətə olan inamını artırır və maliyyə resurslarının genişləndirilməsinə şərait yaradır. Bundan əlavə olaraq, 1 000 000 manat həcmində nizamnamə kapitalı artımı planlaşdırılır.

Qiymətli kağız buraxılışı:

12.09.2023-ci il tarixində Cəmiyyət lizinq verilməsi ilə bağlı fəaliyyətin genişləndirilməsi və mənfəətin əldə edilməsi məqsədi ilə 500 000 manat məbləğində hər birinin nominal dəyəri 1 000 manat, tədavül müddəti 60 ay olan, 500 ədəd 15% faizli təmin edilməmiş istiqrazlar dövlət qediyyatına alınmışdır.

08.05.2023-ci il tarixində Cəmiyyət lizinq verilməsi ilə bağlı fəaliyyətin genişləndirilməsi və mənfəətin əldə edilməsi məqsədi ilə 500 000 manat məbləğində hər birinin nominal dəyəri 1 000 manat tədavül müddəti 60 ay olan, 500 ədəd 15% faizli təmin edilməmiş istiqrazlar dövlət qediyyatına alınmışdır.

2.9.Emitentin əsas fəaliyyətlərinin təsviri:

"Legion Financial" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasında dinamik inkişaf edən maliyyə və lizinq sektorunun aparıcı iştirakçılarından biri olaraq, əsasən avtomobil nəqliyyat vasitələrinin lizinq xidmətlərinin göstərilməsi, fiziki şəxslərə lombard kreditlərinin verilməsi istiqamətində fəaliyyət göstərir. Cəmiyyət həmçinin törəmə müəssisəsi vasitəsilə daşınmaz əmlakın idarə edilməsi və kommersiya əməliyyatlarının aparılması sahələrində də təmsil olunur. Fəaliyyət dövründə xidmət şəbəkəsini genişləndirən Cəmiyyət çevik və müştəriyönümlü maliyyə həlləri təqdim etməklə bazar mövqeyini davamlı olaraq gücləndirir.

2.10.Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsisiyyətləri:

Adı	Vətəndaşlığı	Səhmlərin sayı	Nizamnamə Kapitalında faiz nisbəti
Soltanov Rövşən Rafiq oğlu	Azərbaycan Respublikası	4 200 ədəd səhm	10.1694%
Süleymanlı Ramin Rəhman oğlu	Azərbaycan Respublikası	13 500 ədəd səhm	32.6876%
Məmmədov Böyükağa Mirkamal oğlu	Azərbaycan Respublikası	5 500 ədəd səhm	13.3171%
Cahangiorova Sabirə Ramiz qızı	Azərbaycan Respublikası	700 ədəd səhm	1.6949%
İsmayılov Turan Mübariz oğlu	Azərbaycan Respublikası	15 500 ədəd səhm	37.5302%
Kolas Konstantin	Belarus Respublikası	1 900 ədəd səhm	4.6004%

Mühüm iştirak payının sahibi Emitentə nəzarəti Emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Cəmiyyətin ali idarəetmə orqanı onun Səhmdarlarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) səhmə malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır. Cəmiyyətin hər üç iştirakçısı mühüm iştirak payına sahibdirlər və təşkilatın fəaliyyətinə nəzarət etmək imkanına malikdirlər. Bundan əlavə olaraq, korporativ idarəetmə qaydaları və daxili nəzarət kimi tədbirlər ilə tənzimlənir.

3.Qiymətli kağızlar haqqında məlumat

3.1.İstiqrazların növü: Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar.

3.2.İstiqrazların valyutası: Azərbaycan manatı.

3.3.İstiqrazlarla təsbit olunan məhdudiyyətlərin təsviri: Mövcud deyil.

3.4. İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:

• Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

• İstiqrazların tədavül müddətinin sonunda istiqrazların nominal dəyərini Emitentdən almaq;

• İstiqrazın nominal dəyərindən istiqrazların tədavül müddəti ərzində hər 1 (bir) təqvim ayından (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə) bir faiz almaq;

• Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

3.5.İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri:

İstiqrazlar üzrə illik faiz dərəcəsi 16 (on altı) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 12 (on iki) ay müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə hər 1 (bir) təqvim ayından (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə) bir ödəniləcəkdir. İstiqrazların dəyəri tədavül müddətinin sonunda ödəniləcək. İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir.

3.6.Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtlər:

İstiqrazlar təmin edilməmiş formada buraxılır.

3.7.İstiqrazların geri satın alınma şərtləri:

Emitent tərəfindən istiqrazların tədavül müddəti ərzində geri satın alınma öhdəliyi və hüququ nəzərdə tutulmur.

3.8.Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:

İstiqrazların nominal dəyərinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 12 (on iki) ay təşkil edir. İstiqrazların tədavül müddəti istiqrazların "Bakı Fond Birjası" QSC-də (bundan sonra "BFB")yerləşdirildiyi gün başlayır. İstiqrazların nominal dəyəri istiqrazların tədavül müddətinin son günündə ödəniləcək. İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir. Hər bir istiqraz üzrə bir faiz dövrü üçün ödəniləcək faizlərin məbləği 1.33 (bir manat, 33 qəpik) manat təşkil edir. İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$$TF = \frac{\frac{(N * D * G)}{360}}{100}$$

Burada:

TF – Bir istiqraz üzrə toplanmış faizlər;

N – Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) manat;

D – İstiqrazların illik faiz dərəcəsi: 16 (on altı);

G – İstiqrazların faiz ödəniş dövrünün müddəti: hər 1 (bir) ayda bir (bir ayda 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə).

3.9.İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı: Mövcud deyil.

3.10.Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:

İstiqrazlar təmin edilməmiş formada buraxılır.

3.11.İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat: Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda, istiqrazların ticarətə buraxılacağını tənzimləyən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:

İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra BFB-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. İstiqrazların yerləşdirilməsinə "Bakı Fond Birjasında Qiymətli Kağızların Ticarətə Qəbulu, Listinqə Alınması, Listinqdə Saxlanılması və Delistinqi Qaydaları"-na əsasən onların fond birjasında ilk öncə ticarətə qəbulundan daha sonra isə ticarətə icazəsindən sonra başlanılır. İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır

Həmçinin emissiya prosesində iştirak edən BFB yeni emissiya edilmiş istiqrazların təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı;

• korporativ qiymətli kağızlar bazarı;

• törəmə maliyyə alətləri bazarı.

Qiymətli kağızların ticarətə buraxılması "Bakı Fond Birjası" QSC-də qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinqi Qaydaları" na əsasən həyata keçirilir.
Yerləşdiyi ünvan: AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A.
(City Point Biznes Mərkəzi)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az
Tel: (+99412) 498 98 20

4.Risk faktorları

4.1.Təklif olunan istiqrazlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:

• Faiz riski – faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
• Hesablaşma və kontragent riski – hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
• İnflyasiya riski – pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
• Əməliyyat riski – daxili proseslər, sistem xətaları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
• Kredit riski – borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
• Bazar riski – Gələcəkdə qiymətli kağızlar bazarındakı ümumi vəziyyət, o cümlədən iqtisadi və maliyyə amilləri, istiqrazların bazar dəyərinə birbaşa təsir göstərə bilər.
• Maliyyə sabitliyi riski– Şirkətin gələcək maliyyə vəziyyətində baş verə biləcək mənfi dəyişikliklər, səhmlərin dəyərində azalmaya səbəb ola bilər.
• Tənzimləmə və hüquqi risklər – Qiymətli kağızlar bazarına dair qanunvericilikdə və normativ tənzimləmələrdə baş verə biləcək dəyişikliklər, istiqrazların dövriyyəsinə və şirkətin fəaliyyətinə birbaşa və dolayı təsir edə bilər.
• Təbii risk – insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.);
• Valyuta riski – valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski.
• Kəskin devalivasiyanın olması – müştərilərimizin öhdəliklərin kəskin artması və ödəmə qabiliyyətinin kəskin zəiflənməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır.
• Törəmə şirkətin daşınmaz əmlak bazarından asılılığı – ABŞ-da fəaliyyət göstərən "Finoko-USA" MMC-nin investisiya mülkiyyətləri birbaşa yerli əmlak bazarındakı qiymət dalğalanmalarından asılıdır və bu, konsolidasiya nəticələrinə təsir edir.
• Coğrafi risk – Qrupun bütün maliyyə aktivləri və öhdəliklərinin əsasən Azərbaycan Respublikası daxilində cəmləşməsi ilə bağlı riskdir (məsələn, 2025-ci il üzrə 16,440,521 AZN aktiv Azərbaycan üzrədir). Ölkədaxili iqtisadi və siyasi dəyişikliklər birbaşa təsir göstərir.
Bu risklər investorlar tərəfindən nəzərə alınmalı və investisiya qərarları müvafiq risk qiymətləndirilməsi əsasında qəbul edilməlidir.

4.2.İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:

Kredit Riski: Lizinq alanın borcunu vaxtında və tam şəkildə ödəyə bilməməsi riski, lizinq alanların gəlir səviyyəsinin dəyişməsi, həmçinin makroiqtisadi şəraitin (məsələn, inflyasiya, işsizlik) pisləşməsi, eləcə də lizinq portfelinin yüksək konsentrasiyası (məsələn, bir sektorda və ya coğrafi ərazidə) səbəb ola bilər.
Likvidlik Riski: Lizinq şirkətinin qısa müddətli öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər likvid aktivlərinin olmaması, lizinqlərin uzunmüddətli olması, lakin maliyyələşdirmə mənbələrinin qısamüddətli olması, həmçinin likvidliyə olan tələbatın kəskin artması (məsələn, borc ödənişlərinin vaxtı çatanda) səbəb ola bilər.

Faiz Dərəcəsi Riski: Faiz dərəcələrinin dəyişməsi səbəbindən maliyyə xərclərinin və gəlirlərinin qeyri-sabit olması, məzənnə uyğunluğu olmayan lizinq və maliyyələşdirmə şərtləri, habelə lizinq şirkətlərinin maliyyə mənbələrinin baha qiymətə cəlb edilməsi təsir göstərə bilər.

Əməliyyat Riski: Daxili proseslərdə, işçilərdə və ya sistemlərdə baş verən xətalar və ya xarici hadisələrdən yaranan itkilər, rəqəmsal sistemlərdə texnoloji nasazlıqlar, kibertəhlükəsizlik və məlumatların qorunması ilə bağlı risklər, habelə insan səhvləri və ya sui-istifadə hallarının mövcudluğu təsir göstərə bilər.

Tənzimləmə və Uyğunluq Riski: Qanunvericiliyə və tənzimləyici orqanların tələblərinə əməl etməmək riski, yeni tənzimləyici tələblərə uyğunlaşma çətinlikləri, həmçinin hesabatlılıq və şəffaflıq standartlarının təmin olunmaması təsir göstərə bilər.

Valyuta Riski: Xarici valyutada maliyyələşdirilən və ya verilən lizinqlərin məzənnə dəyişikliklərindən təsirlənməsi, xarici borcların məzənnə ilə artması, o cümlədən müştərilərin yerli valyutada gəlir əldə etdiyi halda borcların xarici valyutada olması səbəb ola bilər.

Rəqabət Riski: Lizinq şirkətlərinin banklar, fintech şirkətləri və digər rəqiblərlə bazar payını bölüşmək məcburiyyətində qalması, faiz dərəcələri və xidmət xərcləri ilə rəqabət apara bilməmək, texnoloji yeniliklərdən geridə qalması şərait yarada bilər.

İqlim və Ətraf Mühit Riskləri: İqlim dəyişikliyi və təbii fəlakətlərin lizinq şirkətinin müştərilərinə və onların ödəmə qabiliyyətinə təsiri, ətraf mühit layihələrinə maliyyə dəstəyinin artırılması tələbləri köməklik göstərə bilər.

5.Təklif

5.1.Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:

Lizinq məhsullarına tələbin artması fonunda emitent istiqraz buraxmaqla daha sərfəli şərtlərlə vəsait cəlb edib və əhalinin Lizinq tələblərini təmin etməklə öz mövqeyini qoruyub artırmağı nəzərdə tutur. Həmçinin təklifin əsas səbəbi mənfəət əldə ediləcək layihələrə yatırım etmək və gələcək fəaliyyətinin dəstəklənməsini təmin etməkdən ibarətdir.

5.2.Təklifin şərtlərinin təsviri:

İstiqrazlar kütləvi təklif üsulu ilə BFB-də yerləşdiriləcəkdir. İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "Azər-Türk Bank" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (bfb.az) və Anderrayterin internet saytında açıqlanır.

5.3.Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti.

Emissiya prosesində iştirak edən BFB yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan

Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:
• dövlət qiymətli kağızları bazarı;
• korporativ qiymətli kağızlar bazarı;
• törəmə maliyyə alətləri bazarı.
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.
Yerləşdiyi ünvan: AZ1022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A.
(City Point Biznes Mərkəzi)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az
Tel: (+99412) 498 98 20

Milli Depozit Mərkəzi.

Milli Depozit Mərkəzi (bundan sonra "MDM") "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. Ödənişlər üzrə hesablaşma agenti qismində MDM çıxış edir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:
• qiymətli kağızların saxlanması və uçotunun aparılması;
• qiymətli kağız mülkiyyətçilərinin reyestrinin aparılması;
• Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Anderrayter.

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 24.12.2021 tarixli İŞ-08 nömrəli müddətsiz lisenziyaya malik olan "Troni İnvestisiya Şirkəti" QSC qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. İstiqrazların yerləşdirmə müddəti ərzində anderrayter uçota alınmış sifarişləri fond birjasının ticarət sisteminə daxil edir və BFB-nin ticarət sistemi vasitəsi ilə istiqrazların yerləşdirilməsi xidmətlərini göstərir. Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar istiqrazları depozitar sistemində saxlanılmağa qəbul edilməsi üçün komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və investorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

5.4.İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:

Vergilər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123.1 ci maddəsinə əsasən Rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, Məcəllənin 102.1.22-2-ci maddəsində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.
Həmçinin, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad

olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və yaanderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

Xərclər.

İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

• BFB – əqdin həcmindən 0.02%;

• MDM – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;

• Bank köçürmə xərcləri – bankdan asılı olaraq dəyişir;

• Anderrayter xidmətləri – investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir.

İstiqrazlar barədə tələb olunan məlumatlar
6.Əsas məlumat

6.1.Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti.

Emissiya prosesində iştirak edən BFB yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı;

• korporativ qiymətli kağızlar bazarı;

• törəmə maliyyə alətləri bazarı.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

Yerləşdiyi ünvan: AZ1022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A.
(City Point Biznes Mərkəzi)

Elektron poçt ünvanı: info@bse.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az

Tel: (+99412) 498 98 20

Milli Depozit Mərkəzi.

MDM "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. Ödənişlər üzrə hesablaşma agenti qismində MDM çıxış edir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

• qiymətli kağızların saxlanması və uçotunun aparılması;

• qiymətli kağız mülkiyyətçilərinin reyestrinin aparılması;

• Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Anderrayter.

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 24.12.2021 tarixli İŞ-08 nömrəli müddətsiz lisenziyaya malik olan "Troni İnvestisiya Şirkəti" QSC qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. İstiqrazların yerləşdirmə

müddəti ərzində anderrayter uçota alınmış sifarişləri fond birjasının ticarət sisteminə daxil edir və BFB-nin ticarət sistemi vasitəsi ilə istiqrazların yerləşdirilməsi xidmətlərini göstərir. Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar istiqrazları depozitar sistemində saxlanılmağa qəbul edilməsi üçün komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və investorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

6.2.İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:

Şirkətin strategiyasına uyğun olaraq, istiqrazların buraxılmasının əsas səbəbləri və cəlb edilən vəsaitlərin təyinat istiqamətləri aşağıdakı kimi qruplaşdırılmışdır:

Lizinq Portfelinin Genişləndirilməsi və Bazarda Mövqeyin Gücləndirilməsi: Son illərdə Şirkətin maliyyə lizinqi üzrə debitor borcları dinamik şəkildə artmış (məsələn, 2023-cü ildəki 4.73 milyon manatlıq portfel, sonrakı illərdə əhəmiyyətli dərəcədə böyümüşdür). İstiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlər birbaşa olaraq əhalinin və biznes subyektlərinin avtomobil və digər təyinatlı lizinq müraciətlərinin maliyyələşdirilməsinə yönəldiləcəkdir. Bu, Şirkətə artan bazar tələbatını operativ şəkildə qarşılamağa və sektordakı rəqabət üstünlüyünü qoruyub saxlamağa imkan verəcəkdir.

Alternativ Maliyyələşdirmə Mənbələrinin Şaxələndirilməsi:Şirkət kapital strukturunun optimallaşdırılması məqsədilə ənənəvi bank kreditləri ilə yanaşı, qiymətli kağızlar bazarının imkanlarından aktiv şəkildə yararlanır. İstiqraz buraxılışı Şirkətə borcverən institutlardan asılılığı azaltmağa, likvidliyin idarə olunmasını təkmilləşdirməyə və daha uzunmüddətli, dayanıqlı maliyyələşdirmə bazası formalaşdırmağa şərait yaradır.

Yüksək Gəlirli Layihələrə və Biznesin Diversifikasiyasına Yatırımlar: Cəlb olunan vəsaitlərin bir hissəsi Şirkətin gəlirliliyinin artırılmasına, o cümlədən yeni məhsul xətlərinin (faktorinq və lombard kreditləri kimi yeni istiqamətlərin) və potensial investisiya layihələrinin dəstəklənməsinə sərf olunacaqdır. Həmçinin bu vəsaitlər Şirkətin törəmə strukturlarının və ümumi əməliyyat miqyasının genişləndirilməsi üçün etibarlı maliyyə bünövrəsi yaradır.

6.3.Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:

Hazırda təşkilatın resurs mənbələri xüsusi kapital və bank öhdəlikləridir.

6.4.Əldə olunan vəsaitlərin digər müəssisələrinin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:

Əldə olunan vəsaitlərin sadalanan məqsədlər üçün istifadəsi nəzərdə tutulmamışdır.

7.İstiqrazlar barədə məlumat

7.1.Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:

Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" və 27 yanvar 2016-cı il tarixli 04 saylı qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar" və digər hüquqi aktlar.

7.2.İstiqrazların növü: Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz.

7.3.Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):

Yeni buraxılan istiqrazlar:

Sayı	Nominal dəyəri	Faiz dərəcəsi	Tədavül müddəti
10 000 ədəd	100 manat	16 faiz	12 ay

Tədavüldə olan istiqrazlar:

Sayı	ISIN kod	Nominal dəyəri	Faiz dərəcəsi	Dövlət qediyyatına alındığı tarix	Tədavül müddəti
500 ədəd	AZ2002025461	1 000 manat	15 faiz	12.09.2023	60 ay
500 ədəd	AZ2001025462	1 000 manat	15 faiz	08.05.2023	60 ay

7.4.İstiqrazların valyutası: Azərbaycan manatı (AZN).

7.5.İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer:
MDM "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.
Hüquqi ünvanı: AZ1000, Bakı şəh., Bül-Bül pr., 27;
Faktiki ünvanı: Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

7.6.Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:
Təklif edilən istiqrazların reytinqi mövcud deyil**.**

7.7.İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:
İstiqraz mülkiyyətçiləri aşağıdakı hüquqlara malikdirlər:
• Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
• İstiqrazların tədavül müddətinin sonunda istiqrazların nominal dəyərini Emitentdən almaq;
• İstiqrazın nominal dəyərindən istiqrazların tədavül müddəti ərzində hər 1 (bir) təqvim ayından (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə) bir faiz almaq;
• Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

7.8.İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda): illik 16 (on altı) faiz.
İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:
İstiqrazlar üzrə illik faiz dərəcəsi 16 (on altı) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddəti ərzində (ilk istiqrazın yerləşdirmə tarixindən etibarən 12 (on iki) ay müddətində (təqvim ili üzrə günlərin sayı 360 və təqvim ayı üzrə günlərin sayı 30 olaraq nəzərə alınmaqla)) ardıcıl olaraq hər 1 (bir) ayda bir (bir ayda 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə) ödəniləcəkdir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişləri növbəti iş günü icra ediləcəkdir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

7.9.Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:
Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

7.10.Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:
Faiz dərəcəsi müəyyən olunub.

7.11.Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:

İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmamışdır. Hal-hazırda bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri müşaiyət olunmur.

7.12.Ödənişlər üzrə hesablaşma agentinin adı:

İstiqrazlar üzrə faiz (kupon) ödənişləri və nominal dəyər üzrə əsas ödəniş MDM vasitəsilə həyata keçiriləcəkdir.

7.13.Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:

Emissiya edilən istiqrazlar təmin edilməmiş formada emissiya edilir.

7.14.İstiqrazların geri satın alınmasının şərtləri:

Emitent tərəfindən istiqrazların tədavül müddəti ərzində geri satın alınma öhdəliyi və hüququ nəzərdə tutulmur.

7.15.Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$$TF = \frac{\frac{(N * D * G)}{360}}{100}$$

Burada:

TF – Bir istiqraz üzrə toplanmış faizlər;

N – Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) manat;

D – İstiqrazların illik faiz dərəcəsi: 16 (on altı);

G – İstiqrazların faiz ödəniş dövrünün müddəti: hər 1 (bir) ayda bir (bir ayda 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə).

Hər bir istiqraz üzrə bir faiz dövrü üçün ödəniləcək faizlərin məbləği 1.33 (bir manat, 33 qəpik) manat təşkil edir.

7.16.İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:

İnvestorları təmsil edən təşkilat mövcud deyildir.

7.17.İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:

İstiqrazların emissiyası haqqında qərar **(**34 saylı protokoldan çıxarış) "Legion Financial" ASC-nin Səhmdarlarının Ümumi Yığıncağı tərəfindən 31.08.2026-cı il tarixində qəbul edilmişdir.

7.18.İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):

Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

7.19.İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123.1 ci maddəsinə əsasən Rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, Məcəllənin 102.1.22-2-ci maddəsində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

Həmçinin, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların

nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması üzrə Emitentin öhdəliyi müvafiq müqavilə əsasında ödəniş agenti olan MDM-ə ötürülür. MDM faiz (kupon) ödənişi günündən bir iş gün əvvələ düşən iş gününün sonunda saat 18.00-da istiqraz sahiblərinin reyestrini formalaşdıracaqdır. Növbəti iş günü (ödəniş günü) həmin reyestrdə adları qeyd olunan investorlara sahib olduqları istiqrazların sayına görə müvafiq faiz (kupon) ödənişinin məbləği hesablanacaqdır.

8.Təklifin şərtləri

8.1.Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:

Yerləşdirmənin başlanma tarixi: Yeni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin saytında investorlara açıqlanacaqdır. **Yerləşdirmənin başa çatma tarixi:** Hərrac qaydalarına uyğun olaraq BFB və anderrayter tərəfindən elan edilən müvafiq hərracın baş tutduğu gün.

8.2.Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:

Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində Mərkəzi Banka təqdim edilir. Emissiya prospektində edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 (beş) iş günü ərzində "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 7.1-ci maddəsi ilə müəyyən edilmiş vasitələrlə açıqlanır və açıqlandığı tarixdən 15 (on beş) iş günü bitdikdən sonra qüvvəyə minir.

8.3.Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:

"Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır.

8.4.İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:

İstiqrazların yerləşdirilməsi prosesində abunə yazılışı nəzərdə tutulmamışdır.

8.5.İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:

İstiqrazlar kütləvi təklif üsulu ilə BFB-də yerləşdiriləcəkdir. İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "Azər-Türk Bank" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (bfb.az) və Anderrayterin internet saytında açıqlanır.

8.6.İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:

İstiqrazların dəyərinin ödənilməsi qaydası "Qiymətli kağılar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu" və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi

haqqında Qaydalar" ilə tənzimlənir. Yerləşdirmə müddəti ərzində investorlar qiymətli kağızların dəyərini anderrayterin hesablaşma agenti kimi çıxış edən "Azər-Türk Bank" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürməlidirlər. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən müvəqqəti cari hesabda saxlanılır və kütləvi yerləşdirilən istiqrazlar üzrə həmin vəsaitlərin istifadəsinə "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 8.1-ci maddəsinə uyğun olaraq yerləşdirmə başa çatdıqdan dərhal sonra yol verilir. Mərkəzi depozitar investisiya qiymətli kağızlarının dəyərinin investorlar tərəfindən ödənilməsi haqqında məlumatları aldıqdan sonra qiymətli kağızları investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.

8.7.Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:

Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

8.8.İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:

Hərracın keçirildiyi gün investorlara hərracın başlanması saatı elektron poçt vasitəsi ilə bildiriləcəkdir.

8.9.İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat: İstiqrazın təklif qiyməti 100 (bir yüz) manat təşkil edir.

8.10.İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:

Vergilər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123.1 ci maddəsinə əsasən Rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, Məcəllənin 102.1.22-2-ci maddəlsində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

Həmçinin, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və yaanderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

Xərclər.

İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

• BFB – əqdin həcmindən 0.02%;

• MDM – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;

• Bank köçürmə xərcləri – bankdan asılı olaraq dəyişir;

• Anderrayter xidmətləri – investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir.

8.11.İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı:

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 24.12.2021 tarixli İŞ-08 nömrəli müddətsiz lisenziyaya malik olan "Troni İnvestisiya Şirkəti" QSC qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

Hüquqi ünvan: Bakı şəh., AZ1072, Nərimanov ray., Koroğlu Rəhimov küçəsi 13 B, mənzil 33.

Telefon: (+994 10) 256 75 56

E-mail: support@troni.az
VÖEN: 1505667351
Xidmət haqqı emitentlə anderrayter arasında bağlanılmış müqaviləyə əsasən müəyyən ediləcəkdir.
İstiqrazlar anderrayter tərəfindən öhdəlik götürməklə yerləşdiriləcəkdir.

8.12.Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı: 29 Sentyabr 2026-cı il.

9.Ticarətə buraxılma və onun tənzimlənməsi

9.1.İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:

İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra BFB-nin ticarət platformasında həyata keçiriləcək. Bunun üçün istiqraz buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ilk növbədə Listinq Komitəsindən ticarətə qəbul üzrə icazə alınacaq, daha sonra istiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət ediləcəkdir.

Emissiya prosesində iştirak edən BFB yeni emissiya edilmiş istiqrazların ticarətə buraxılması üçün icazə prosedurudur, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, listinqə daxil edilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı;
• korporativ qiymətli kağızlar bazarı;
• törəmə maliyyə alətləri bazarı.

Qiymətli kağızların ticarətə buraxılması "Bakı Fond Birjası" QSC-də qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinqi Qaydaları" na əsasən həyata keçirilir.

Yerləşdiyi ünvan: AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A.
(City Point Biznes Mərkəzi)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az
Tel: (+99412) 498 98 20

9.2.Market meyker(lər) barədə məlumat:

Emitent tərəfindən gələcəkdə istiqrazların təkrar bazarda tədavülü üçün prosesə marketmeyker(lər) cəlb edilə bilər.

10.Kredit reytinqləri

10.1.Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqlər:

Emitentin qiymətli kağızları üçün hər hansı reytinq təşkilatına müraciət edilməmişdir.

İstiqrazların emitenti və zamin (olduqda) barədə tələb olunan məlumat

11.Emitentin auditorları barədə məlumat

11.1.Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:

Maliyyə ili	Auditorun adı	Ünvanı	Audit təşkilatında üzvlüyü barədə məlumat
2023	RSM Azerbaijan MMC	Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti, ev. 37 Demirchi tower rsm.global/azerbaijan/az	Auditorlar Palatasına üzvdür.
2024	RSM Azerbaijan MMC	Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti, ev. 37 Demirchi tower rsm.global/azerbaijan/az	Auditorlar Palatasına üzvdür.
2025	RSM Azerbaijan MMC	Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti, ev. 37 Demirchi tower rsm.global/azerbaijan/az	Auditorlar Palatasına üzvdür.

11.2.Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat: Auditorun əvəzlənməsi və ya dəyişdirilməsi baş verməmişdir.

12.Seçilmiş maliyyə məlumat

12.1.Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:

Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin maliyyə vəziyyətində və maliyyə nəticələrində əhəmiyyətli dəyişikliklər olmamışdır.

Göstəricilər (manatla)	31.12.2025 (audit olunmuş)	31.12.2024 (audit olunmuş)	31.12.2023 (audit olunmuş)
Cəmi aktivlər	20 671 451	13 771 052	4 750 763
Cəmi öhdəliklər	15 806 559	9 027 120	1 889 430
Cəmi kapital	4 864 892	4 743 932	2 861 333
Pul vəsaitləri və onların ekvivalentləri	44 644	116 056	22 414
Maliyyə lizinqi üzrə debitor borcları	13 230 956	10 051 314	4 727 467
İl üzrə cəmi məcmu gəlir	1 361 418	1 213 932	616 332

Göstəricilər (manatla)	30.06.2026 (audit olunmamış)	30.06.2025 (audit olunmamış)
Cəmi aktivlər	22 471 281	19 067 603
Cəmi öhdəliklər	17 023 335	14 684 558
Cəmi kapital	5 447 946	4 383 044
Pul vəsaitləri və onların ekvivalentləri	43 493	149 469
Maliyyə lizinqi üzrə debitor borcları	12 093 071	11 135 820
İl üzrə cəmi məcmu gəlir	479 097	733 044

13.Emitent barədə məlumat

13.1.Emitentin tam adı, təşkilati-hüquqi forması: "Legion Financial" Açıq Səhmdar Cəmiyyəti.

13.2.Emitentin dövlət qeydiyyatının rekvizitləri: VÖEN: 2006222901, 12.06.2020-ci il.

13.3.Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:

13.3.1."Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti, 12.06.2020-ci il tarixində qeydiyyata alınıb;

13.3.2."Legion Financial" Açıq Səhmdar Cəmiyyəti, 29.11.2023-cü il tarixində çevrilmə formasında təşkilati-hüquqi formasının dəyişdirilmə nəticəsində.

13.4.Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:

Hüquqi ünvan: AZ1100, Bakı Şəhəri Yasamal Rayonu, Həsənbəy Zərdabi Pr., Ev. 25a.
Elektron poçt ünvanı: office@legion.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: legion.az
Tel: (+99412) 310 52 53

13.5.Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarın əsas investisiyaların təsviri (məbləği göstərilməklə): Mövcud deyil.

13.6.İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat: Mövcud deyil.

13.7.Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:

Emissiya prosesində iştirak edən BFB yeni emissiya edilmiş istiqrazların ticarətə buraxılması üçün icazə prosedurudur, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, listinqə daxil edilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı;
• korporativ qiymətli kağızlar bazarı;
• törəmə maliyyə alətləri bazarı.

Yerləşdiyi ünvan: AZ1022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A
(City Point Biznes Mərkəzi)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az
Tel: (+99412) 498 98 20

14.Emitentin biznesinin icmalı

14.1.Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:

"Legion Financial" ASC Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən məhdudiyyət və şərtlərə riayət etmək şərti ilə aşağıdakı fəaliyyət növləri ilə məşğul ola bilər:

• Maliyyə lizinqi: Fiziki və hüquqi şəxslərə nəqliyyat vasitələrinin və avadanlıqların lizinqə verilməsi;
• Faktorinq: Debitor borclarının maliyyələşdirilməsi və müvafiq müqavilələrin bağlanması;
• Lombard kreditləri: Fiziki şəxslərə qısamüddətli təminatlı kreditlərin verilməsi;
• Daşınmaz əmlak: Əmlak obyektlərinin alqı-satqısı və idarə edilməsi əməliyyatları.

Göstəricilər (manatla)	31.12.2025 (audit olunmuş)	31.12.2024 (audit olunmuş)	31.12.2023 (audit olunmuş)
Xalis Maliyyə lizinqi üzrə debitor borc vəsaitləri	13 230 956	10 051 314	4 727 467
Xalis Faktorinq müqavilələri	2 543 484	0	0
Xalis Lombard kreditləri	448 939	0	0

14.2.Təqdim olunmuş yeni məhsullar və xidmətlər barədə məlumat, onların inkişaf statusu:

Son dövrdə (2025-ci ildən etibarən) Şirkət əsas xidməti hesab olunan lizinq verilməsindən yanaşı lombard kreditləri ilə məşğul olur və bir dəfəlik gəlirli layihə kimi problemli kredit portfelini alışını öz xidmətlərinə əlavə etmişdir. Bundan əlavə olaraq, şirkət lombard krediti portfelini genişləndirməyi və inkişaf etdirməyi planlaşdırır. Hər hansı konseptual və ya sınaq mərhəlisində olan məhsul və xidmət mövcud deyil.

14.3.Emitentin rəqabət apardığı əsas bazarların təsviri:

Emitentin fəaliyyət göstərdiyi əməliyyat mühiti ölkənin iqtisadi şərtləri, hökumət siyasəti və fiskal-monetar siyasətlərin effektivliyindən birbaşa asılıdır. Beynəlxalq agentliklər tərəfindən Azərbaycanın kredit reytinqinin müsbət qiymətləndirilməsi (2024-cü ildə Fitch və S&P: "BBB+", Moody's: "Ba1") və milli valyutanın sabit qalması bazarda qeyri-müəyyənlikləri azaldaraq lizinq və maliyyə təşkilatlarının səmərəli fəaliyyətinə şərait yaradır.

Emitent daxili maliyyə bazarında, xüsusilə avtomobil və avadanlıq lizinqi seqmentində fəaliyyət göstərir. Hazırda bu rəqabətli bazarda lisenziya əsasında fəaliyyət göstərən banklar və digər ixtisaslaşmış lizinq şirkətləri mövcuddur. Bazar dinamikasının formalaşmasında korporativ şirkətlər, avtomobil dilerləri və digər maliyyə təşkilatları institusional iştirakçı kimi çıxış edirlər.

Bu çərçivədə “Legion Financial” ASC öz rəqabət üstünlüyünü yerli fiziki şəxslərə təklif etdiyi çevik və fərdiləşdirilmiş lizinq məhsulları üzərində qurmuşdur. Təşkilatın bazardakı əsas fundamental üstünlükləri sırasına xidmətlərin milli valyutada göstərilməsi, avtomobil dilerləri ilə strateji tərəfdaşlıq əlaqələri, habelə sürətli qərarqəbuletmə və yüksək əməliyyat operativliyi daxildir. Bazar payını qorumaq və davamlı böyüməni təmin etmək məqsədilə təşkilat müştəri bazasının genişləndirilməsi, rəqəmsallaşma trendlərinin tətbiqi və maliyyə alətlərinin optimallaşdırılması istiqamətində strateji hədəflərini uğurla icra edir.

14.4.Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması:

Rəqabət mövqeyinə dair bəyanat mövcud deyildir.

15. Digər təşkilatlarda iştirak

15.1.Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri:

Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri: “Legion Financial” ASC 2024-cü il tarixinə olan vəziyyətə əsasən, aşağıdakı hüquqi şəxsdə iştirak edir:

“Finoko - USA” MMC – Şirkət 2023-cü ilin avqust ayında yaradılmış və daşınmaz əmlakın idarə edilməsi sahəsində fəaliyyət göstərir. “Legion Financial” ASC bu şirkətin 100% səhmdarıdır.

“Finoko - USA” MMC ABŞ-ın Delaware ştatında qeydiyyatdan keçmişdir və konsolidasiya olunmuş maliyyə hesabatlarına daxil edilmiş əsas törəmə şirkətdir.

Qeydiyyat nömrəsi: 7649955;

Fəaliyyət sahəsi: Daşınmaz əmlakın idarə edilməsi;

Hal-hazırda "Legion Financial" ASC-nin yuxarıda göstərilən hüquqi şəxsdən başqa digər kommersiya hüquqi şəxslərdə iştirak payı yoxdur.

15.2.Emitentin daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:

15.3. Emitent heç bir qrupa daxil deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

16.Tendensiyalar barədə məlumat

16.1.Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:

Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətində Emissiya Prospektinə mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

16.2.Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:

Ölkədə həyata keçirilən makroiqtisadi sabitləşmə proqramları və Mərkəzi Bankın effektiv pul-kredit siyasəti maliyyə-bank sektorunun dayanıqlılığını əhəmiyyətli dərəcədə artırmışdır. Mövcud makroiqtisadi sabitlik kredit təşkilatlarının resurs bazasının güclənməsinə və onların əməliyyat səmərəliliyinin yüksəlməsinə əlverişli zəmin yaratmışdır. Hazırda daxili bazarda investor və kreditor aktivliyinə mənfi təsir göstərə biləcək hər hansı qeyri-müəyyənlik dalğası müşahidə olunmur, makroiqtisadi proqnozlar sabit və proqnozlaşdırıla biləndir. Bundan əlavə olaraq, yerli maşın bazarında son dövrlərdə müşahidə olunan akitvlik isə sabit makroiqtisadi vəziyyətə töhvə verir. Bu pozitiv iqtisadi mühit fonunda, Emitentin cari maliyyə öhdəlikləri tamamilə onun əsas əməliyyat fəaliyyətindən qaynaqlanır və şirkətin güclü nağd pul axını hesabına idarə edilir. Emitent öz qısamüddətli və uzunmüddətli öhdəliklərini vaxtında, tam həcmdə və qüsursuz şəkildə icra etməkdədir, bu isə onun yüksək ödəniş qabiliyyətini və etibarlı partnyor imicini növbəti dəfə təsdiqləyir.

17. Gəlir proqnozu

Gəlirlərin proqnozu mövcud deyil.

18. Emitentin idarəetmə və nəzarət orqanları

18.1.Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:

İcra Orqanı barədə məlumat		
18.1.1.	**A.S.A**	**Böyükağa Məmmədov Mirkamal oğlu**
	Vəzifə	**Direktor**
18.1.2.	**Funksiya**	• Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir; • Vəkalətnamə olmadan Cəmiyyətin adından öz səlahiyyətləri çərçivəsində çıxış edir, onu istər ölkə daxilində, istərsə də xaricdə bütün dövlət orqanlarında, ümumi və ixtisaslaşdırılmış məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir; • Səhmdarların Ümumi Yığıncağının və digər orqanlarının müstəsna səlahiyyətlərinə aid olan məsələlərdən başqa, digər bütün məsələləri həll edir; • Cəmiyyətin adından bütün növ müqavilələr bağlayır, vəkalətnamələr verir (o cümlədən başqasına etibar etmək hüququ ilə), banklarda Cəmiyyətin cari və başqa bank hesablarını açır və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarını aparır; • Cəmiyyətin daxili əmək intizamı qaydalarını, ştat vahidlərini, Ümumi yığıncaq tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir; • Cəmiyyətin struktur bölmələri haqqında əsasnaməni və Cəmiyyətin əməkdaşlarının vəzifə təlimatını (əmək funksiyasını) hazırlayır və təsdiq edir;

		• Cəmiyyətin işçilərini işə qəbul edib işdən azad edir, işçilərə həvəsləndirmə tədbirləri tətbiq edir, Cəmiyyətin daxili əmək intizamı qaydalarına və qanunvericiliyə müvafiq olaraq onları intizam məsuliyyətinə cəlb edir; • Cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərar qəbul edir və əmirlər (sərəncamlar) verir; • Cəmiyyətin şəxsi heyətinin təhsil alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlayır və təsdiq edir; • Cəmiyyətin fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir.

Ali İdarəetmə Orqanı barədə məlumat							
18.1.1.	**A.S.A**	**Rövşən Soltanov Rafiq oğlu**	**Ramin Süleymanli Rəhman oğlu**	**Böyükağa Məmmədov Mirkamal oğlu**	**Sabirə Cahangirova Ramiz qızı**	**Turan İsmayılov Mübariz oğlu**	**Kolas Konstantin**
18.1.2.	**Funksiya**	• Cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişmək; • Cəmiyyətin icra orqanını yaratmaq və onun səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək; • Cəmiyyətin Müşahidə Şurasının və təftiş komissiyasının üzvlərini (müfəttişi) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək; • Cəmiyyətin illik hesabatlarını və mühasibat balanslarını, mənfəət və zərər hesablarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək; • Mənfəətin bölüşdürülməsi və zərərin ödənilməsi qaydalarını müəyyən etmək; • Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar qəbul etmək. Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir; • Cəmiyyətin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək.					

Emitentin Müşahidə Şurası mövcud deyildir.

18.1.3.Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin Direktorlar şurasına (Müşahidə Şurasına), o olmadıqda, Səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

19.İdarə heyətinin işgüzar praktikası

19.1.Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:

Emitentin mükafatlandırma komitəsi və audit komitəsi mövcud deyildir.

19.2.Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:

Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

20.Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər

20.1.Emitentin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:

Adı	Vətəndaşlığı	Səhmlərin sayı	Nizamnamə Kapitalında faiz nisbəti
Soltanov Rövşən Rafiq oğlu	Azərbaycan Respublikası	4 200 ədəd səhm	10,1694%
Süleymanlı Ramin Rəhman oğlu	Azərbaycan Respublikası	13 500 ədəd səhm	32,6876%
Məmmədov Böyükağa Mirkamal oğlu	Azərbaycan Respublikası	5 500 ədəd səhm	13,3171%
İsmayılov Turan Mübariz oğlu	Azərbaycan Respublikası	15 500 ədəd səhm	37,5302%

20.2.Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:

Səhmdarların ümumi yığıncağında səsvermə "bir səsli səhm - bir səsdir" prinsipi əsasında həyata keçirilir. Cəmiyyətin ali idarəetmə orqanı onun Səhmdarlarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) paya malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

20.3.Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:

Emitentdə mühüm iştirak payına malik 4 səhmdar vardır. Onlardan Soltanov Rövşən Rafiq oğlu 10.1694%, Məmmədov Böyükağa Mirkamal oğlu 13.3171%, Süleymanlı Ramin Rəhman oğlu 32.6876%, İsmayılov Turan Mübariz oğlu isə 37.5302% səhmə malikdir və Cəmiyyətin ümumi yığıncağı vasitəsilə emitentin idarə olunmasında əsas qərarverici subyektlərdir. Səhmdarların idarəetmə fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və emitentin nizamnaməsinə uyğun şəkildə həyata keçirilir. Qərarların rəsmiləşdirilməsi protokollarla aparılır, şəffaflıq və hüquqi uyğunluq prinsiplərinə əməl olunur. Emitent tərəfindən aşağıdakı tədbirlər vasitəsilə səhmdar nəzarətinin şəffaf və ədalətli aparılması təmin edilir:

• Bütün qərarlar sənədləşdirilir və qanuni əsaslarla qəbul olunur;

• Maliyyə hesabatları qanunvericiliklə müəyyən edilmiş qaydada təqdim olunur və maliyyə intizamına ciddi riayət edilir;

• Qərarvermədə maraqların toqquşmasının qarşısının alınması üçün daxili nəzarət mexanizmləri tətbiq olunur;

• Əgər gələcəkdə əlavə səhmdarlar cəlb olunarsa, onların hüquqlarının bərabər qorunması üçün hüquqi və təşkilati baza mövcuddur.

• Beləliklə, emitentə nəzarət edən səhmdarın fəaliyyəti şəffaf şəkildə həyata keçirilir və bu nəzarətin sui-istifadə hallarına yol verilməməsi üçün hüquqi və təşkilati tədbirlər mövcuddur.

21.Emitentin maliyyə məlumatları

21.1.Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:

21.1.1.Konsolidasiya edilmiş Maliyyə Vəziyyəti Haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	31.12.2025 (Audit olunmuş)	31.12.2024 (Audit olunmuş)	31.12.2023 (Audit olunmuş)
AKTİVLƏR			
Pul vəsaitləri və onların ekvivalentləri	44 644	116 056	22 414
Maliyyə lizinqi üzrə debitor borcları	13 230 956	10 051 314	4 727 467
Faktorinq müqavilələri	2 543 484	-	-
Lombard kreditləri	448 939	-	-
Əlaqəli tərəflərə verilmiş borc vəsaitləri	177 767	-	-
Əmlak və avadanlıqlar	104 916	101 346	882
İnvestisiya mülkiyyəti	3 646 065	2 233 799	-
Banklara qoyulmuş depozitlər	-	855 360	-
Amortizasiya olunmuş dəyərdə borc alətləri	-	274 641	-
Aktivdən istifadə hüququ	345 595	83 615	-
Təxirə salınmış vergi aktivləri	99 557	31 631	-
Digər aktivlər	29 528	23 290	-
Cəmi aktivlər	**20 671 451**	**13 771 052**	**4 750 763**
KAPİTAL			
Nizamnamə kapitalı	3 910 000	3 530 000	2 245 000
Bölüşdürülməmiş mənfəət	954 892	1 213 932	616 333
Cəmi kapital	**4 864 892**	**4 743 932**	**2 861 333**
ÖHDƏLİKLƏR			
Buraxılmış (borc) qiymətli kağızlar	905 513	922 000	995 000
Müddətli borc öhdəlikləri	12 495 489	5 233 741	734 683
Səhmdardan alınan borc vəsaitləri	1 781 045	2 471 000	30 331
Mənfəət vergisi öhdəliyi	174 466	236 861	101 101
İcarə öhdəlikləri	309 677	87 041	-
Digər öhdəliklər	140 369	76 477	28 315
Cəmi öhdəliklər	**15 806 559**	**9 027 120**	**1 889 430**
Cəmi öhdəliklər və kapital	**20 671 451**	**13 771 052**	**4 750 763**

21.1.2.Konsolidasiya edilmiş Mənfəət və ya Zərər və Digər Məcmu Gəlirlər haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	31.12.2025 (Audit olunmuş)	31.12.2024 (Audit olunmuş)	31.12.2023 (Audit olunmuş)
Faiz gəlirləri	3 973 675	2 213 337	893 129
Faiz xərcləri	(1 788 842)	(734 911)	(132 740)
Xalis faiz gəlirləri	**2 184 833**	**1 478 426**	**760 389**
Maliyyə aktivləri üzrə GKZ xərci	(309 051)	(154 731)	-
Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri	**1 875 782**	**1 323 695**	**760 389**
Haqq və komissiya gəlirləri	269 814	154 285	42 705
İcarə güzəştləri üzrə gəlirlər	-	50 160	-
Yenidən qiymətləndirmə gəliri	179 110	-	-
Digər gəlirlər	71 073	197 973	-
Qeyri-faiz gəlirləri	**519 997**	**402 418**	**42 705**
İnzibati xərclər	(660 664)	(188 766)	(32 650)
Məzənnə fərqindən zərərlər	(2 822)	(2 601)	-
Qeyri-faiz xərcləri	**(663 486)**	**(191 367)**	**(32 650)**
Vergidən əvvəlki mənfəət	**1 732 293**	**1 534 746**	**770 444**
Mənfəət vergisi xərci	(370 875)	(320 814)	(154 112)
İl üzrə mənfəət	**1 361 418**	**1 213 932**	**616 332**

21.1.3.Konsolidasiya edilmiş Kapitalda Dəyişikliklər haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi kapital
31 dekabr 2021-ci il tarixinə	**400 100**	**16 491**	**416 591**
İl ərzində buraxılmış səhmlər	1 030 000	-	1 030 000
İl üzrə cəmi məcmu mənfəət	-	282 725	282 725
31 dekabr 2022-ci il tarixinə	**1 430 100**	**299 216**	**1 729 316**
Əlavə ödənilmiş kapital / Buraxılmış səhmlər	814 900	-	814 900
Elan edilmiş dividendlər	-	(299 215)	(299 215)
İl üzrə cəmi məcmu gəlir (mənfəət)	-	616 332	616 332
31 dekabr 2023-cü il tarixinə	**2 245 000**	**616 333**	**2 861 333**
Əlavə ödənilmiş kapital	1 285 000	-	1 285 000
Elan edilmiş dividendlər	-	(616 333)	(616 333)
İl üzrə cəmi məcmu gəlir	-	1 213 932	1 213 932
31 dekabr 2024-cü il tarixinə	**3 530 000**	**1 213 932**	**4 743 932**
Əlavə ödənilmiş kapital	380 000	-	380 000
Elan edilmiş dividendlər	-	(1 620 458)	(1 620 458)
İl üzrə cəmi məcmu gəlir	-	1 361 418	1 361 418
31 dekabr 2025-ci il tarixinə	**3 910 000**	**954 892**	**4 864 892**

21.1.4.Konsolidasiya edilmiş Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	31.12.2025 (Audit olunmuş)	31.12.2024 (Audit olunmuş)	31.12.2023 (Audit olunmuş)
Əməliyyat fəaliyyəti			
Vergidən əvvəlki mənfəət	**1 732 293**	**1 534 746**	**770 444**
Əmlak və avadanlıqların köhnəlmə xərci	28 681	17 247	1 141
Aktivdən istifadə hüququ üzrə köhnəlmə xərci	49 311	42 576	-
Gözlənilən kredit zərəri (GKZ) üzrə xərc	309 051	154 731	-
Əsas vəsaitlərin silinməsindən zərər	-	-	1 931
İcarə güzəştləri üzrə gəlirlər	-	(50 160)	-
Məzənnə fərqindən zərərlər	(6)	2 601	-
Faiz gəlirləri	(3 973 675)	(2 213 337)	(893 129)
Faiz xərcləri	1 788 842	734 911	132 740
Təxirə salınmış komissiya gəliri	9 225	-	-
Yenidən qiymətləndirmə gəliri	(179 110)	-	-
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətində daxil olan / (istifadə olunan)pul vəsaitləri	**(235 388)**	**223 315**	**13 127**
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər:			
Maliyyə lizinqi üzrə debitor borcları	(3 104 179)	(5 391 730)	(2 573 049)
Faktorinq müqavilələri	(2 704 095)	-	-
Lombard kreditləri	(448 152)	-	-
Digər aktivlər	(6 239)	(23 290)	-
Digər öhdəliklər	63 890	48 162	27 972
Vergi və faizlərdən əvvəl əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri	**(6 434 163)**	**(5 143 543)**	**(2 531 950)**
Ödənilmiş mənfəət vergisi	(501 195)	(216 685)	(112 422)
Əldə olunmuş faizlər	3 871 865	2 096 187	858 390
Ödənilmiş faizlər	(1 706 023)	(729 071)	(128 105)
Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri	**(4 769 516)**	**(3 993 112)**	**(1 914 087)**
İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Əmlak və avadanlıqların alınması	(32 251)	(117 711)	-
İnvestisiya mülkiyyətinin alınması	(1 233 156)	(2 233 799)	-
Amortizasiya olunmuş dəyərdə borc alətləri üzrə ödənişlər	-	(3 101 300)	-
Amortizasiya olunmuş dəyərdə borc alətlərindən daxil olmalar	252 301	2 849 000	-
Banklara qoyulmuş depozitlər üzrə xaric olmalar	-	(850 000)	-
Banklara qoyulmuş depozitlər üzrə daxil olmalar	850 000	-	-
Əlaqəli tərəflərə verilmiş borc vəsaitləri üzrə xaric olmalar	(481 220)	-	-
Əlaqəli tərəflərə verilmiş borc vəsaitləri üzrə daxil olmalar	199 049	-	-
İnvestisiya fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri	**(445 277)**	**(3 453 810)**	**-**
Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Ödənilmiş icarə haqqı	(91 669)	-	-
Nizamnamə kapitalının emissiyası	380 000	1 285 000	814 900
Ödənilmiş dividendlər	(1 620 458)	(616 333)	(299 215)
Buraxılmış borc qiymətli kağızlar üzrə daxil olmalar	168 001	177 000	1 000 000
Buraxılmış borc qiymətli kağızlar üzrə geri ödənişlər	(191 000)	(250 000)	(5 000)
Müddətli borc öhdəliklərindən daxil olmalar	8 985 900	8 710 000	2 142 000
Müddətli borc öhdəlikləri üzrə geri ödənişlər	(1 790 893)	(4 206 103)	(1 758 037)
Səhmdardan alınan borc vəsaitlərinin daxil olması	1 531 030	3 810 000	30 000
Səhmdarlardan alınan borc vəsaitləri üzrə geri ödənişlər	(2 227 530)	(1 369 000)	-
Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri	**5 143 381**	**7 540 564**	**1 924 648**
Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma) / artım	**(71 412)**	**93 642**	**10 561**
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri	116 056	22 414	11 853
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri	**44 644**	**116 056**	**22 414**

21.2.Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları: Emitent bir ildən çox müddət ərzində fəaliyyət göstərir.

21.3.Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:

Maliyyə hesabatları MHBS-ə uyğun olaraq hazırlanmışdır.

21.4.Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):

Emitentin maliyyə hesabatları konsolidasiya olunur. Konsolidasiya edilmiş maliyyə hesabatları hazırki Emissiya Prospektinin 21.1-ci bəndində qeyd edilmişdir.

21.5.Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarım illik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:

21.5.1. Konsolidasiya edilmiş Maliyyə Vəziyyəti Haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	30.06.2026 (Audit olunmamış)	30.06.2025 (Audit olunmamış)
AKTİVLƏR		
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	43 493	149 469
Maliyyə icarəsi əməliyyatları üzrə alacaqlar	12 093 071	11 135 820
Lombard kreditləri üzrə alacaqlar	618 537	354 370
Faktorinq əməliyyatları	3 893 947	3 392 304
Banklarda yerləşdirilmiş depozitlər	-	859 609
Digər qısamüddətli investisiyalar	150 139	155 642
Torpaq, tikili və avadanlıqlar	268 350	88 297
Qeyri-maddi aktivlər	3 649	-
Maliyyə icarəsinə götürülmüş əmlaklardan istifadə hüquqları	525 967	-
İnvestisiya mülkiyyəti	4 582 482	2 828 798
Təxirə salınmış mənfəət vergisi aktivi	161 543	-
Digər aktivlər	130 092	103 290
Cəmi aktivlər	22 471 281	19 067 603
KAPİTAL		
Nizamnamə kapitalı	4 130 000	3 650 000
Bölüşdürülməmiş mənfəət / (yığılmış zərər)	1 317 946	733 044
Cəmi kapital	**5 447 946**	**4 383 044**
ÖHDƏLİKLƏR		
Buraxılmış borc qiymətli kağızları üzrə öhdəliklər	912 000	932 000
Maliyyə təşkilatlarından alınmış kreditlər	-	808 295
Səhmdarlardan alınmış borclar	1 581 203	1 803 900
Digər şəxslərdən alınmış borclar	13 714 914	10 928 333
Maliyyə icarəsi öhdəlikləri	407 189	-
Cari mənfəət vergisi öhdəliyi	22 889	106 212
Digər öhdəliklər	385 138	105 816
Cəmi öhdəliklər	**17 023 335**	**14 684 558**
Cəmi kapital və öhdəliklər	**22 471 281**	**19 067 603**

21.5.2.Konsolidasiya edilmiş Mənfəət və ya Zərər və Digər Məcmu Gəlirlər haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	30.06.2026 (Audit olunmamış)	30.06.2025 (Audit olunmamış)
Faiz gəlirləri	2 264 684	1 759 535
Faiz xərcləri	(1 084 740)	(758 946)
Xalis faiz gəlirləri	**1 179 943**	**1 000 588**
Maliyyə aktivlərinin gözlənilən kredit zərərləri üçün ehtiyat yaradılması xərci	-	-
Ehtiyat ayırmalarından sonra xalis faiz gəliri	**1 179 943**	**1 000 588**
Digər gəlirlər	58 684	80 949
İnzibati xərclər	(651 006)	(154 170)
Vergidən əvvəl mənfəət	**587 621**	**927 368**
Mənfəət vergisi	(117 524)	(194 324)
Xalis mənfəət	**470 097**	**733 044**

21.5.3. Konsolidasiya edilmiş Kapitalda Dəyişikliklər haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi kapital
31.12.2025-ci il tarixinə qalıq	**3 910 000**	**1 650 818**	**5 560 818**
Nizamnamə kapitalının artırılması	220 000	-	220 000
İl ərzində xalis mənfəət	-	470 097	470 097
Dividend ödənişi	-	(802 970)	(802 970)
30.06.2026-cı il tarixinə qalıq	**4 130 000**	**1 317 946**	**5 447 946**
31.12.2024-cü il tarixinə qalıq	**3 530 000**	**1 340 458**	**4 870 458**
Nizamnamə kapitalının artırılması	120 000	-	120 000
İl ərzində xalis mənfəət	-	733 045	733 045
Dividend ödənişi	-	(1 340 458)	(1 340 458)
30.06.2025-ci il tarixinə qalıq	**3 650 000**	**733 045**	**4 383 045**

21.5.4.Konsolidasiya edilmiş Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat

Açıqlama (Azərbaycan manatı ilə)	30.06.2026 (Audit olunmamış)	30.06.2025 (Audit olunmamış)
Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti:		
Vergidən əvvəl mənfəət/(zərər)	587 622	927 369
Torpaq, tikili, avadanlıq və qeyri-maddi aktivlərin amortizasiya/köhnəlmə xərcləri	109 758	13 049
Gözlənilən kredit zərərləri üçün ehtiyat xərcləri	-	-
İstifadə edilməmiş məzuniyyət günləri üzrə öhdəliklər	26 423	-
Lizinq öhdəlikləri üzrə şərtlərin dəyişilməsindən zərər/(gəlir)	-	2 211
Xarici valyuta məzənnə dəyişikliyindən zərər/(gəlir)	(2 644)	-
Törəmə müəssisələrə investisiyalar üzrə dividend gəlirləri	(4)	(2)
Alınacaq faiz borclarında azalmalar/(artımlar)	(125 893)	(63 158)
Komissiya gəlirlərinin tənzimlənməsindən zərər/(gəlir)	5 905	-
Silinmiş faiz və cərimə məbləğləri	(37 670)	(28 160)
Ödəniləcək faiz borclarında artımlar/(azalmalar)	54 119	22 166
Xərclər üçün ödənilmiş avanslar	(1 483)	-
Ödəniləcək inzibati xərclərdə artımlar/(azalmalar)	(2 526)	16 458
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl pul vəsaitləri	**613 606**	**889 932**
Əməliyyat aktiv və öhdəliklərində dəyişmələr:		
Maliyyə icarəsi obyektləri üzrə ilkin ödənişlər	258 300	-
Maliyyə icarəsi obyektlərinin alınması	(3 152 150)	(3 520 800)
Maliyyə icarəsi əməliyyatları üzrə əsas borc yığımları	4 126 011	2 651 025
Lombard kreditlərinin verilməsi	(574 695)	(472 363)
Lombard kreditləri üzrə əsas borc yığımları	407 815	124 517
Faktorinq əməliyyatları	(1 816 108)	(3 781 527)
Faktorinq əməliyyatları üzrə əsas borc yığımları	1 061 932	409 854
Digər aktivlər	(4 213)	-
Digər öhdəliklər	33 304	(11 441)
Ödənilmiş mənfəət vergisi	(289 958)	(324 973)
Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti	**663 845**	**(4 035 775)**
İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti:		
Torpaq, tikili, avadanlıq və qeyri-maddi aktivlərə investisiyalar	(186 942)	-
İcarəyə götürülmüş aktivlərdən istifadə hüquqlarının əldə edilməsi	(262 918)	-
İnvestisiya mülkiyyətinin alınması	(936 418)	(595 000)
Digər qısamüddətli investisiyalar	(225 543)	(151 000)
Digər qısamüddətli investisiyaların geri ödənişi	152 043	252 300
İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti	**(1 459 778)**	**(493 700)**
Maliyyələşmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti:		
Nizamnamə kapitalının artırılması	220 000	120 000
Payçılara dividend ödənilməsi	(489 970)	(1 380 737)
Maliyyə təşkilatlarından alınmış kreditlər	-	460 500
Maliyyə təşkilatlarından alınmış kreditlərin geri ödənilməsi	-	(430 976)
Borc qiymətli kağızlarının emissiyasından daxilolmalar	70 000	148 000
Borc qiymətli kağızlarının geri alınması üzrə ödənişlər	(57 000)	(138 000)
Təsisçilərdən alınmış borclar	613 650	527 900
Təsisçilərdən alınmış borcların geri ödənilməsi	(822 500)	(999 000)
Digər şəxslərdən alınmış borclar	2 033 300	6 525 200
Digər şəxslərdən alınmış borcların geri ödənilməsi	(865 700)	(270 000)
Maliyyə icarəsi üzrə öhdəliklərin qəbul edilməsi	210 334	-
Maliyyə icarəsi öhdəliklərinin ödənilməsi	(117 332)	-
Maliyyələşmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti	**794 782**	**4 562 888**
Xarici valyuta məzənnələrindəki dəyişikliyin təsiri	-	-
Pul vəsaitlərində xalis artım / (azalma)	**(1 150)**	**33 413**
Dövrün əvvəlinə pul vəsaitləri və ekvivalentləri	44 644	116 057
Dövrün sonuna pul vəsaitləri və ekvivalentləri	**43 494**	**149 470**

21.6.Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir: Emissiya Prospektinin 21.5-ci bəndində qeyd edilmişdir.

21.7.Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):

Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi prosesləri mövcud deyil.

21.8.Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:

Maliyyə hesabatlarının dərc edilməsindən emissiya prospektinin tərtib ediləməsinədək emitentin maliyyə vəziyyətində heç bir dəyişiklik baş verməmişdir.

22.Emitent haqqında əlavə məlumatlar

22.1.Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:

Nizamnamə kapitalının ümumi məbləği 4 130 000 (dörd milyon yüz otuz min) manat həcmindədir və hər biri 100 (bir yüz) manat olmaqla, 41 300 (qırx bir min üç yüz) ədəd adi, sənədsiz, adlı səhmdən ibarətdir. Nizamnamə kapitalında imtiyazlı səhmlər mövcud deyil.

• Soltanov Rövşən Rafiq oğlu – 420 000 (dörd yüz iyirmi min) manat, 4 200 (dörd min iki yüz) ədəd, adi, adlı sənədsiz səhm.

• Süleymanlı Ramin Rəhman oğlu – 1 350 000 (bir milyon üç yüz əlli min) manat, 13 500 (on üç min beş yüz) ədəd, adi, adlı sənədsiz səhm.

• Məmmədov Böyükağa Mirkamal oğlu – 550 000 (beş yüz əlli min) manat, 5 500 (beş min beş yüz) ədəd, adi, adlı sənədsiz səhm.

• Cahangiorova Sabirə Ramiz qızı – 70 000 (yetmiş min) manat, 700 (yeddi yüz) ədəd, adi, adlı sənədsiz səhm.

• İsmayılov Turan Mübariz oğlu – 1 550 000 (bir milyon beş yüz əlli min) manat, 15 500 (on beş min beş yüz) ədəd, adi, adlı sənədsiz səhm.

• Kolas Konstantin – 190 000 (bir yüz doxsan min) manat, 1 900 (bir min doqquz yüz) ədəd, adi, adlı sənədsiz səhm.

Adi səhmlərə təsbit edilmiş hüquqlar:

• Cəmiyyətin idarə edilməsində Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericilik və nizamnamə ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;

• Nizamnamə və qanunvericiliklə müəyyən edilmiş qaydada Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;

• Ümumi Yığıncağın çağırılmasını tələb etmək.;

• Ümumi Yığıncağın gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;

• Ümumi Yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;

• Cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək

• Cəmiyyətin xalis mənfəətindən dividend almaq

• Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, kreditorların tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra qalan əmlakın müəyyən hissəsini almaq;

22.2.Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:

Fəaliyyət və məqsədlərin təsviri:

Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə, o cümlədən xüsusi icazə alınmasını tələb edən müəyyən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra məşğul ola bilər.

İdarəetmə və nəzarət orqanlarının salahiyyətləri barədə müddəaların icmalı:

Emitentin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır. Ümumi Yığıncağın müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

• Cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişmək;

• Cəmiyyətin icra orqanını yaratmaq və onun səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

• Cəmiyyətin Müşahidə Şurasının və təftiş komissiyasının üzvlərini (müfəttişi) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

• Cəmiyyətin illik hesabatlarını və mühasibat balanslarını, mənfəət və zərər hesablarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək;

• Mənfəətin bölüşdürülməsi və zərərin ödənilməsi qaydalarını müəyyən etmək;

• Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar qəbul etmək. Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir;

• Cəmiyyətin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək;

Direktorun səlahiyyətinə aşağıdakılar aid edilir:

• Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;

• Vəkalətnamə olmadan Cəmiyyətin adından öz səlahiyyətləri çərçivəsində çıxış edir, onu istər ölkə daxilində, istərsə də xaricdə bütün dövlət orqanlarında, ümumi və ixtisaslaşdırılmış məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir;

• Səhmdarların Ümumi Yığıncağının və digər orqanlarının müstəsna səlahiyyətlərinə aid olan məsələlərdən başqa, digər bütün məsələləri həll edir;

• Cəmiyyətin adından bütün növ müqavilələr bağlayır, vəkalətnamələr verir (o cümlədən başqasına etibar etmək hüququ ilə), banklarda Cəmiyyətin cari və başqa bank hesablarını açır və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarını aparır;

• Cəmiyyətin daxili əmək intizamı qaydalarını, ştat vahidlərini, Ümumi yığıncaq tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;

• Cəmiyyətin struktur bölmələri haqqında əsasnaməni və Cəmiyyətin əməkdaşlarının vəzifə təlimatını (əmək funksiyasını) hazırlayır və təsdiq edir;

• Cəmiyyətin işçilərini işə qəbul edib işdən azad edir, işçilərə həvəsləndirmə tədbirləri tətbiq edir, Cəmiyyətin daxili əmək intizamı qaydalarına və qanunvericiliyə müvafiq olaraq onları intizam məsuliyyətinə cəlb edir;

• Cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərar qəbul edir və əmirlər (sərəncamlar) verir;

• Cəmiyyətin şəxsi heyətinin təhsil alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlayır və təsdiq edir;

• Cəmiyyətin fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir.

Emitentin Müşahidə Şurası mövcud deyildir.

22.3.Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat: Mövcud deyil.